No: 01 2025
http://doi.org/0000-0000-0000-0000
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

# NMR-DA MÜXTƏLİF ŞƏHƏR, KƏND VƏ RAYONLARINDA GENDER BƏRABƏRLİYİ MƏSƏLƏSİNƏ YANAŞMALAR

**Solmaz Cabbarova**[1]
https://orcid.org/0000-0002- 9975- 1941
solmazjabbarlindu@gmail.com
**Sevinc İsmayılova**[2]
https://orcid.org/0000-0002-1264-6357
**Zülfiyyə Babazadə**[3]
https://orcid.org/0009-0003-1395-2545
[1,2,3]Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan

**Yazışılan müəllif: solmazjabbarlindu@gmail.com; Tel.:( +994509865454)*

**XÜLASƏ**

Qloballaşan dünyada şəxsiyyətlərarası münasibətlərin dəyişkən hal alması, cəmiyyətin öz sturukturunu dəyişməsi, milli və mənəvi dəyərlərin məhvi gender bərabərliyi məsələsinə müraciət etməyə səbəb olmuşdur. Uşaqlara cinsi dimofirizmin aşılanmasına tənqidi münasibətin yaranması feminist, maskulin, homoseksual, transseksual, biseksualların və s. çoxalmasına gətirib çıxardı. Eynicinsli insanların (homoseksual, biseksual) münasibəti cəmiyyətin tarazlığını pozaraq əhalinin təbii artımının azalmasına eyni zamanda natamam ailələrin çoxalmasına səbəb oldu.

Eyni zamanda cinsi mənsubiyyətə yad münasibətin formalaşması nəticəsində, qadın kişi məhfumları həqiqi mahiyyətini itirməyə başladı. Cinsi kimliyə yaranan tərəddütlü münasibət birbaşa duyğularda pozuntuların yarananmasına gətirib çıxartdı. Müasir günümüzdə duyğularda olan pozuntular, dəyərsizlik, tənhalıq, yetərsizlik duyğusu və bu duyğunun gətirdiyi ani, məntiqə sığmayan qərarlar mövcud məsələni işıqlandırmağa sövq etmişdir. Natamamlıq kompleksi, bir çox takıntılı davranışlar bu duyğuların utancaqlıq və kibirli davranış reaksiyaları ilə gizlədilməyə çalışması böhranlı vəziyyətin nə qədər acınacaqlı vəziyyətdə olduğundan xəbər verir. Kütləvi informasiya vasitələrinin bu istiqamətdə məqsədyönlü addımları mövcud situasiyanı daha da gərginləşdirmişdir. Bu məqalədə gender bərabərliyinin mahiyyəti, nə vaxt və harada yaranma səbəbi onun mahiyyəti bu bərabərliyin təmin olunmamasının cəmiyyətdə gətirdiyi neqativ hallar araşdırılmışdır.

**Açar sözlər:** *gender bərabərliyi, qadın, kişi, feminist, hormon, şəxsiyyət*

## GİRİŞ

Gender bərabərliyi mövcud olmayan cəmiyyətdə qadın və kişi öz məsuliyyətini, hüquq və vəzifəsini dərk edə bilmir. Bu da erkən nigahlılığa, qadınlara psixoloji, fiziki təzyiqlərə, kişi hüquqlarının məhdudlaşmasına, boşanma hallarının sürətlənməsinə s. bu qəbildən olan müxtəlif mənfi situasiyaların meydana gəlməsinə şərait yaradır. Ailələr məhəbbət, inam qarşılıqlı hörmət, təmənnasız yaxşılıq üstündə qurulmadıqda cəmiyyətdə gender bərabərliyi pozulması halları daha sıx müşahidə olunur. Çünki, ailədə yalnız ər-arvad münasibətləri formalaşmır, həm də o münasibətlər çərçivəsində uşaqlar-gələcəyin qurucuları böyüyür. Yetişən nəsil öz cinsi mənsubiyyətini, məqsəd və vəzifəsini, meyllərini, maraq və təlabatlarını düzgün dərk etməsi üçün bu gün sağlam ailələr formalaşdırılmalıdır. Gender bərabərliyi məsələsinə müraciətdə məqsəd cəmiyyətdə mövcud olan mənfi halların

sürətlənməsinin qarşısını almaq, ailələrdə şəxsiyyətlərarası münasibətləri tənzimləmək, insanların ictimai və sosial həyatlarının rifahını təmin etməkdir.

Müasir günümüzə kimi cəmiyyət həyatında müxtəlif problemlər mövcud olmuş, onların bəzisi öz həllini tapdığı halda, digərləri hələ də aktuallığını qorumaqdadır. Bu sosial problemlərdən biri də moderinizmin (qərbin) gətirmiş olduğu gender bərabərliyi məsələsidir. Gender bərabərliyi məsələsinin bu dərəcədə qarışıq hal almasının əsas səbəbi feministlərin cəmiyyətə inteqrasiya etməyə çalışdıqları "qadın azadlığıdır". 1892-ci ildə qadının insan sinfinə aid edilməməsi Fransada feministlərin ehtirazına səbəb olmuşdur.Feminist adı atında birləşənlərin əksəriyyəti baş verən hərakatın əsasında hansı məqsədin gizləndiyini dərk etməyən sadə evdar qadınlar idi.

Məqalədə anket sorğusundan, nəzəri təhlil metodundan istifadə edilmişdir

**Əsas hissə**

Digər bir səbəb isə qərb ölkələrinin bütün dünyaya tətbiq etməyə çalışdığı – praktikada özünü doğrulda bilməyən, heç bir dəyərə və elmi əsasa söykənməyən nəzəri fikirlərdir. Bəşəriyyətin tərəqqi və sülh içində yaşamağı üçün bu problem həlli vacib olan məsələlərdəndir. Gender bərabərliyi yalnız qadın azadlığı, qadın hüquqlarının qorunması, qadının sosial həyatı, işi və s. kimi məsələlərə deyil, eyni zamanda kişilərin ictimai həyatda yeri və rolunun müəyyən edib, məhdudlaşmamasına xidmət etməlidir. Məlumdur ki, hər bir cinsin özünəməxsus bioloji xüsusiyyəti, sinir sisteminin quruluşu, psixologiyası, vəzifəsi vardır. Deməli, gender bərabərliyi məsələsinə qadın hüquqlarının müdafiəsi və ya qadının qarşı cinsdən üstünlüyünü göstərmək üçün var olan bir nəzəriyyə kimi yanaşılmamalıdır. Bu nəzəriyyə hər iki tərəfin öz vəzifəsini bilib ona görə davranaraq, xoşbəxt yaşamağını təmin etmək məqsədi daşıyır.

Gender bərabərliyi qadın və kişinin eynilik təşkil etməyini nəzərdə tutmur. Kişi və qadının yaradılışında anatomik, fizioloji, psixoloji cəhətdən fərqliliklər var. Müxtəlif hadisələr zamanı qadın və kişi beyninin fərqli mexanizmalar olduğu aydın görünür. Kişilər səssizləşir, içinə qapanır, uzun müddət düşünərək çıxış yolu tapmağa cəhd göstərirlər. Qadınların isə daha çox ünsiyyət qurmağa, bölüşməyə, fikir mübadiləsi etməyə ehtiyac hiss edən varlıqlar olması müəyyənləşmişdir. Bu sinir sistemi ilə əlaqədar baş verən təbii prosesdir.

Qadınla kişi arasında var olan fizioloji fərqliliklər onların davranış və hadisələrə münasibətlərinin nə üçün fərqli olmasını izah edir. Beyinin sol tərəfində broca wernicke (danışma mərkəzi) yerləşir ki, qadın danışır, eyni zamanda qarşı tərəfi dinləyib məntiqli cavab verir. Sol beyin yarımkürəsi sağ beyin yarımkürəsindən daha yaxşı inkişaf etdiyinə görə qadınlar ünsiyyətcil, yaradıcı, fədakar, şəfqətli, yüksək empati qurma bacarığına sahibdirlər. Ön beyin funksiyası hesabına tədbirli, alınmış informasiyanı uzun-uzadı təhlil edən, illər keçməsinə baxmayaraq ilk günkü kimi xatırlayıb, izah edə bilmək kimi fərdi keyfiyyətlərə sahibdirlər.

Kişilərdə sağ beyin yarımkürəsi daha yaxşı inkişaf etdiyindən onlar risk almağa meyilli, işlək, ciddi, intizamlı, kəşf etməyə səy göstərən, iradəli, məntiqi təfəkkürə sahib şəxsiyyət kimi formalaşmışlar. Onlarda ön beyinin qadınlara xas funksiyası olmadığından tez hərəkətə keçən, işin nəticəsinə fokuslanan beyinə hakimdirlər. Kişilər avtomobilin idarə olunmasında, onun park edilməsində, yolun istiqamətinin izah edilməsində daha mahirdirlər. Beyinləri hesablama, rəqəmsal işlərdə, xəritə və şifrələri oxumaqda daha üstünlük göstərir.

Göstərilən səbəblərdən yola çıxaraq qadın və kişinin müxtəlif sahələrdə mütəxəssis ola biləcəyi müəyyənləşmiş olur. Qadınlar sahib olduqları şəfqət, qayğı, səbr, ünsiyyətçilik, empati qurma bacarığı və s. mənəvi dəyərlərə görə müəllim, tibb bacısı, tərbiyəçi, psixoloq kimi peşələrdə , kişilər isə əzmi, məntiqi hesabı , nəticəyönümlülüyü, rəqəmsal qabiliyyəti və s. görə bənna, sürücü, sahibkar, aşpaz, iqtisadçı, hərbiçi kimi peşələrdə daha irəli gedəcəkləri öz təsdiqini tapmışdır.

Empati qurmaq bacarığının qadınlarda daha yüksək olması aydın faktdır. Burada bir məqama diqqət yetirmək lazımdır ki, o da qadın və kişinin empati qurmaq bacarığının fərqliliyi məsələsidir. Qadınlar empati quran zaman bütün duyğuları ilə hadisəyə adaptasiya olur, qarşıdakının hisslərini keçirir, narahatçılığını bölüşür və beləliklə qarşıdakına mən səni başa düşürəm ismarıcını verə bilir. Kişilər isə bu prosesə tamamilə fərqli münasibət nümayiş etdirirlər. Onlar bilikyönümlü empati qurur, özünü hadisənin içinə deyil, onu həll etməyə proqramlayırlar. Qarşıdakını çətinlikdən, narahatçılıqdan xilas etmək üçün vasitələr, çıxış yolu axtarıb tapırlar. Bunun başlıca səbəbi kişilərdə olan testosteron

hormonun üstünlük təşkil etməsidir. Ümumilikdə var olan fərqliliklərin bir çoxu -hormonlar, sinir sisteminin quruluşu və cəmiyyətin onlara yüklədiyi dəyərlər sistemidən qaynaqlanır.

İnsan şəxsiyyətini formalaşdıran ən təməl faktorlardan biri hormonlardır. Orqanizmdə fərqli iş prinsipi olan bir çox hormonun fəaliyyəti bir-biri ilə vəhdət təşkil edir. Qadınlarda oksitosin şəfqət, fədakarlıq, mərhəmət, yumşaq, üzüyolalığa, kişilərdə testosteron güc, qüvvə, risk almağa meyilllik, kəmhövsələlik, intizamsızlıq, antisosial, soyuq, gələcəyə yönəlmiş, çətinliyə meyl edən tipik keyfiyyətlərin aşılanmasına xidmət edir.

Digər fərqlilik isə duyğulardadır. İdrak proseslərindən olan duyğunun qadınlarda kişilərdən 3 dəfə çox inkişaf etdiyindən, qız uşaqları oğlan uşaqlarından daha tez danışmağa başlayır, onlarda eşitmə aparatı və iyi bilmə qabiliyyəti daha yaxşı olur. Duyğu prosesinin bu cür inkişafı üz ifadələrinin mükəmməl oxumasına şərait yaradır. Kişi beyni isə daha çox axtarmağa, yeniliklərə, kəşf etməyə maraqlıdır. Buna görə də oğlan uşaqları ətrafda qaçmağa, axtarmağa, bir oyuncaqdan müxtəlif məqsədlər üçün istifadə etmək bacarığına sahibdirlər. Hiperaktivliyin ən çox oğlan uşaqlarında müşahidə olunma halları heç də təsadüfi deyildir.

Fiziki cəhətdən kişilər qadınlardan güclü olmasına baxmayaraq xəstəliklərin bir çoxu oğlan uşaqlarında rast gəlinir. AİDS, disleksiya, autizmin 5/6, kəkələmələrin 4/5 oğlan uşaqlarında müşahidə olunması və s. bu kimi fərqliliklər hər iki cinsin bir birindən fərqli bioloji xüsusiyyətlərinin olmasının sübutudur. Digər tərəfdən isə bir cism və ya əşyanın müqayisəsi zamanı onun eynicinsli olması vacib məsələdir. Bu situasyadan yola çıxaraq qadın və kişinin eyni müstəvidə müqayisə olunması, eyniləşdirilməsi tamamilə yanlış addımdır. Bütün xarakterik xüsusiyyətləri nəzərdən keçirdikdə hər iki cinsin nümayəndəsinin bir-birini tamamladığını, birinin digərinin zərurət və ehtiyaclarını ödədiyini görmüş oluruq.

Əgər biz bu münasibətləri pozulmuş bir pazıla bənzətsək onda parçaları birləşdirmək üçün bir-biri ilə oxşarlıq, eyniyyət təşkil edən hissələri deyil, bir biri ilə örtüşən fərqli forma və hissələri tapmalıyıq. Pazılda olduğu kimi tərəflər nə qədər bir-birinin əksi kimi görünsədə, əslində birləşdikdə bir-birini tamamlayan, həyatın özəyini təşkil edən şəxsiyyətlərdir. Bütün bunlar tərəflərin rəqabət aparmayaraq, həyatı bölüşməsini şərtləndirir. Gender bərabərliyi yalnız qadının və ya yalnız kişinin hüquqlarını deyil, ümumilikdə bütün insanların cinsindən, dinindən, iqtisadi və sosial mövqeyindən aslı olmayaraq hər kəsin hüququnu qorumaq məqsədini daşıyır.

NMR-ın müxtəlif şəhər, kənd, rayonlarında gender bərabərliyi mövzusunda anket sorğusu həyata keçirilmişdir. Məqsədimiz bərabərlik anlayışını müsbət və ya mənfi qəbul edənlərin düşüncələrini, yanaşmalarını-ümumiyyəylə bu anlayış haqqında nə qədər məlumatlı olduqlarını ortaya çıxarmaqdır. Həyatlarının hansı sahələrində bu bərabərliyə ehiyacları olduğunu, hansı səbəbdən moderinizmin ictimailəşdirərək, məşhurlaşdırdığı gender bərabərliyi nəzəriyyənsini qəbul etmədiklərini, cəmiyyətdə müsbət dəyişikliklər gətirməsinə inamsızlıqlarının səbəbini tapmağa çalışmışıq. Əhalinin geniş izah və əsaslandırmaları ilə həyata keçirdiyimiz sorğu 10 sualdan təşkil olunmuşdur. Aparılan sorğuya əsasən aşağıda göstərilən ümumi yanaşmalar qeydə alınmışdır.

1.Gender bərabərliyi sizin üçün nə məna ifadə edir?

Gender bərabərliyi – Hər iki cinsin nümayəndəsinin hüquq bərabərliyi və bu hüquqların azad şəkildə həyata keçirilməsi üçün yaranan imkandır. Konstitusiyamızın 25-ci maddəsində bu bərabərlik öz əksini tapmışdır: "Hamı qanun və məhkəmə qarşısında bərabərdir."(1.s10) "Kişi ilə qadının eyni hüquqları və azadlıqları vardır." ."(1. s10) Əgər biz sosial, demokratik cəmiyyətdə yaşayırıqsa qadın və kişinin bərabərliyi mütləq şərtdir. Dünyanın harasında olmasından asılı olmayaraq bu bərabərlik daima qorunmalıdır, əks halda şəxsiyyət həyatda hər zaman geridə qalmış və özünü ifadə edə bilməmək təhlükəsi ilə qarşılaşacaq.

Gendər məsələsinə fərqli yanaşmalar da müşahidə olunmuşdur. Bəzi düşüncələrə görə gender bərabərliyi Azərbaycan xalqının milli mentalitetini məhdudlaşdırılmasına xidmət edir.

2.Ölkəmizdə gender bərabərsiziyi halları varmı? Varsa nələrdir?

Ölkəmizdə gender bərabəsizliyi halları ailələrdə daha çox hiss olunur. Bəzi ailələrdə qadına söz hüququ verilməməsi, qul kimi yanaşmalar, fiziki zorakılıq, qadına müəyyən psixoloji təzyiqlər buna misal ola bilər. Eyni zamanda sosial mühitdə yalnız qadın və ya yalnız kişi peşəsinin cəmiyyət tərəfindən birmənalı şəkildə qəbul edilməsinin şahidi oluruq. Göstərilən bu səbəblər qadının inkişafına, sosial

fəaliyyətinə, dünyagörüşünün artırılmasına mane olur. Bəzi qadınlara görə yalnız kişilərin hərbi xidmətə çağrılması, təqaüd yaşının fərqli müəyyənləşdirilməsi, qadınlara ömürlük həbsin olmaması, hətta ictimai nəqliyyatda qadınlara yer verilməsinin bir sosial gözlənti olmasını ayrı seçkilik kimi qəbul edirlər.

Bəzi vətəndaşlar isə Konstitusiyamızda "Gender bərabəriyinin təminatı haqqında qanun" imzalanandan sonra neqativ hallara az rast gəlindiyi qənaətindədirlər. Bütün idarə, müəssisə, təhsil və dövlət orqanlarında qadınların kişilərin birgə fəaliyyəti və bu fəaliyyətdə eyni hüququ daşıması ölkəmizdə gender bərabərsizliyi hallarının olmadığının təcəssümüdür.

3.Sizcə gender bərabərliyi daha çox kimin hüquqlarnı müdafiə edir? Kişilərin hüquqları burada pozulurmu?

Bəziləri gender bərabərliyini pozulmuş qadın hüquqlarını bərpa edilməsinə atılan addım kimi dəyərləndirirlər. Bu səbəbdən gender bərabərliyi qadınların hüquqlarını müdafiə edir fikri üstünlük təşkil edir. Nadir hallarda kişi hüquqlarının məhdudlaşdırılması halları da müşahidə olunur.

Bu bərabərlik kiminsə hüquqlarını pozmaq üçün deyil, məhz hüquq bərabərliyini özündə cəmləşdirdiyi üçün, hər iki cinsin nümayəndəsini müdafiə edir və yaxud bu hüquq bərabərliyi sadəcə kağız üzərində olduğu üçün heç kimi müdafiə etmir kimi fikirlər də mövcuddur.

4.Kişi və qadın hüquqları eyniyyət təşkil etməlidirmi? Fikrinizi əsaslandırın.

Qadın və kişi hüquqlarının eyniyyət təşkil etməlidirmi sualına cavabda ikili yanaşma mövcuddur. Birincisi ölkəmizdə milli mentalitet olduğundan kişilərin hüquqları üstünlük təşkil etməlidir. Ölkəmizdə mühafizəkarların fikrinə görə bu belə olmalıdır. İkinci yanaşma da isə qərb meyilli şəxslərin dediyi qadınlar kişilərlə hüquqi cəhətdən bərabər olmalıdır.

5.Qadın peşəsi və ya kişi peşəsi deyilən fikrə münasibətiniz?

Qadın və ya kişi peşəsi deyilən anlayış səhv yanaşma deyil. Çünki, bəzi peşələr var ki, orda yalnız kişi qüvvəsinə ehtiyac var. Yaxud bəzi peşələrin öhdəsindən yalnız qadınlar gələ bilər. Hər cinsin özünəməxsus bacardığı, dəyər verdiyi peşəyə sahib olması daha əhəmiyyətlidir. Digər yanaşmalara görə dövlət təhsil hüququnun həyata keçirilməsində bərabər imkanlar yaradır və istənilən peşəyə yiyələnə bilmək (əmək funksiyalarının xüsusiyyətlərinə görə işçinin cinsi müəyyənedici şərt olsun) qadın və kişi peşəsinin müasir dövrdə olmamasını şərtləndirir.

6.Sizin yaşadığınız regionda gender bərabərliyi anlayışının qəbul edilməsi mümkündümü?

Əksəriyyət bu suala xeyr cavabını vermişdir. Gender bərabərliyi nəinki bizdə hətta dünyada qəbul edilə bilməsi reallığını əks etdirmir.

Cəmiyyətdə gender bərabərliyinin bütün regionlarda özünü bariz şəkildə biruzə verməsi fikirləri də mövcuddur.

7.Sizin yaşadığınız regionda qadın və kişi hansı sahələrdə bərabər ola bilər?

Təhsil hüququnda, dövlət orqanlarında işləməkdə, əmək prosesində, ailənin idarə olunmasında, uşaqların tərbiyə prosesində, fikrini ifadə etməkdə, şəxsi və mülkiyyət toxunulmazlığında istirahət etməkdə, ictimai işlərdə, təqaüd almaqda, nigahda və s. demək olar ki hər bir sahədə bərabərdilər. Lakin, istisnalarda inkar edilmir.

8.Qadın və kişi bərabərliyində xarici ölkənin vətəndaşlarına bənzəmək istərdinizmi?

Bu suala əksəriyyət xeyir, qətiyyən cavabı verməklə izah ediblər ki, istər gender bərabərliyi, istərsə də digər sahələrin öz cəmiyyətimiz daxilində tədricən təşəkkül tapması daha məqsədəuyğundur. Əks təqdirdə bu fəlakətə yol açar. Bəzi xarici ölkələrə müqayisədə Azərbaycanda qadınlara daha çox hüquq və dəyər verilir. Elə ölkələr var ki, onlarda gender bərabərliyi, demokratiya yalnız şüar olaraq səsləndirilir, cəmiyyətdə həqiqətini doğrultmur. İstisna sayılacaq qədər isə bəli cavabları müəyyənləşdirilmişdir.

Bəzi ziyalılarımız mədəniyyəti yüksək olan, xarakteri bizim xalqa bənzəyən, əxlaqı təmiz olan xalqlara bənzəmək lazım olduğunu qeyd edərək, elmi nəaliyyətlərdə, sənayesində, iqtisadiyyatında, hərbisində müsbət inkişafı olan (Yaponya, Polonya, Finlandiya, Cənubi Koreya, Honq Konq, Kanada və s.) ölkələrə bənzəmək istədiklərini qeyd ediblər. Beləliklə, görkəmli maarifçimiz Əli bəy Hüseyinzadənin "Mən Avropanın mədəsində həzm olunmaq istəmirəm, mən onun beyninə nüfuz etmək istəyirəm" fikrinə şərik olmuşdular.

9.Həyat yoldaşınızın (qadınların) usta, fəhlə, kənd təsərrüfatında fəaliyyətinə münasibətiniz?

Kişilər birmənalı olaraq buna razı olmadıqlarını qeyd etmişdilər.

10.Həyat yoldaşınızın (kişilərin) ev işlərində yardım etməyini istəyirsinizmi?

Ailə daxili münasibətlərin tənzimlənməsi, ev təəssərüfatı işləri, uşaqların tərbiyə olunması və bir çox mənəvi təlabatlarının ödənilməsi qadınlar tərəfindən həyata keçirildiyindən bu əks tərədən atılan gözəl bir təşəbbüs olardı. Göstərilən təşəbbüs köməklik deyil, bir öhdəlik olaraq qəbul olunsa daha düzgün yanaşma olar. Çünki, bu fiziki yardımdan çox mənəvi dayaq rolunu oynayır.

Bəzi qadınlara görə kişinin vəzifəsi yalnız ailəni maddi cəhətdən təmin etməkdir. Bu səbəbdən ev işlərində edilən yardımı qəbul etmirlər.

Naxçıvan şəhərində aparılan anket sorğusunun nəticəsinə görə əsasən, yaşlı nəsil modernizmin aşıladığı gender bərabərliyi anlayışını birmənalı olaraq qəbl etmir. Öz dəyərlərimizi, ata-baba adət-ənənələrini qoruyub, yetişən nəsli o istiqamətdə tərbiyə edilməsini məqsədəuyğun görürlər. Orta və gənc nəsil isə həyatın hər sahəsində ictimai, sosial, iqtisadi bərabərlik fikrini müdafiə edirlər. Qərbin müsbət dəyərlərini seçib özümüzünküləşdirərək inkişaf etməli olduğumuz qənaətindədirlər.

## NƏTİCƏ

Deməli, bərabərlik yalnız kağız üzərində var olan nəzəriyyə kimi qalmamalı, onun reallaşması üçün irimiqyaslı maarifləndirmə işləri həyata keçirilməlidir. Gender bərabərliyi feminizm kimi qadına verilməyən hüquqların tələbi ilə kifayətlənməməli, bütün bəşər övladının rifahını təmin etmək öhdəliyini layiqincə yerinə yetirməlidir. Bu öhdəlik yerinə yetirilərkən əvvəldə göstərilən bioloji, fizioloji, psixoloji keyfiyyətlərlə yanaşı, hər bir xalqın milli mənəvi dəyərləri, adət-ənənəsi, bir sözlə, milliliyi nəzərə alınmalıdır. Milliliyi təbiətin bizə bəxş etdiyi nemət hesab edərək, öz mənimizi, kimliyimizi tanımalıyıq. Necə ki, şəxsiyyət başqaları ilə daim müqayisə olunmasından xoşhallıq hiss etmir, eləcədə yaşadığımız coğrafiyanı ba.qaları ilə müqayisə etməyərək fəaliyyətimizi, ünsiyyətimizi, davranışımızı ona görə tənzimləməliyik. Gendər bərabərliyi yalnız qadın kişi münasibətlərinin tənzimlənməsi üçün deyil, şəxsiyyətin bütün həyatı boyu rastlaşdığı çətinliklərin həllinə yönəlmiş məqsədyönlü nəzəriyyədir.

Cəmiyyətdə gender bərabərsizliyi hallarının qarşısını almaq üçün ilk növbədə kütləvi şəkildə maarifləndirmə işləri təşkil olunmalıdır Cəmiyyət nə qədər təhsilli olarsa həm kişi qadın bərabərliyi, həm də qadınların uğur qazanması daha asan olar. Bunun üçün ilk növbədə kütləvi maarifləndirmə işləri həyata keçirilməlidir. Elm-texniki tərəqqinin inkişaf etdiyi modern dünyada maarifləndirmə işləri KİV hesabına həyata keçirilməsi məqsədəuyğundur.

Şəxsiyyətin formalaşması, inkişafı, anatomiyası, ictimai münasibətləri və s. bu mövzularda müasir elmi biliklər əsasında proqramlar, dərsliklər, kitablar, konfranslar işlənib hazırlanmalıdır.

Psixoloq, fizioloq, sosioloqlar tərəfindən treninqlər həyata keçirilməlidir.Zaman keçdikcə bu yanaşmalar insanların psixologiyasında öz yerini taparaq ictimai münasibətlərində, ünsiyyət və fəaliyyətində təzahür edəcəkdir. Bunun üçün yeniliklərə açıq olmalı, bizə nəyin lazım, nəyin gərəksiz olduğunu süzgəcdən keçirib həyatımıza tətbiq etməliyik.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Konstitusiyası. Hüquq yayın evi. Bakı. 2021 səh. 116 .

2. Əlizadə Ə. Qadın psixologiyası. 2015 səh. 416.

3.John Gray – Kişilər Marsdan Qadınlar Veneradan. İstanbul 2003, səh.285.

4.Serkan Karaismayıloğlu – Qadın beyni kişi beyni. Elma 2017, səh. 223.

5. Nevzat Tarhan Qadın psixologiyası. Nesil 2015. səh. 350.

## SUMMARY

Solmaz Cabbarova, Sevinc İsmayılova, Zülfiyyə Babazadə

# APPROACHES TO THE ISSUE OF GENDER EQUALITY IN VARIOUS CITIES, VILLAGES AND DISTRICTS OF THE NAKHCHİVAN AUTONOMOUS REPUBLİC.

The variability of interpersonal relationships in a globalized world, the transformation of society's structure, and the erosion of national and moral values have led to addressing the issue of gender equality. The emergence of a critical attitude toward instilling sexual dimorphism in children has resulted in an increase in the number of feminists, masculinists, homosexuals, transsexuals, bisexuals, and others. The relationships of same-sex individuals (homosexuals, bisexuals) disrupting the balance of society, caused decline in natural population growth as well as an increase in incomplete families.

At the same time, the formation of an indifferent attitude toward gender identity has caused the concepts of man and woman to lose their true essence. The emergence of uncertain attitudes toward sexual identity has directly led to emotional disturbances. Nowadays, emotional disturbances, feelings of worthlessness, loneliness, inadequacy, and the impulsive, irrational decisions driven by these feelings have prompted an examination of this issue. The inferiority complex and various obsessive behaviors, along with attempts to conceal these feelings through reactions of shame and arrogance, indicate the severity of the crisis. The deliberate actions of mass media in this direction have further aggravated the existing situation. This article explores the essence of gender equality the reason of, where and when it occured, its significance, and the negative consequences of failing to ensure this equality in society.

**Keywords:** *gender equality, woman, man, feminist, hormone, personality*

## АННОТАЦИЯ.

# ПОДХОДЫ К ВОПРОСУ ГЕНДЕРНОГО РАВЕНСТВА В РАЗНЫХ ГОРОДАХ, СЕЛАХ И РАЙОНАХ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ.

В глобализированном мире изменились межличностные отношения, общество изменило свою структуру, а национальные и моральные ценности привели к обострению к проблеме негативного гендерного равенства. Появление критического отношения к признанию полового диморфизма детям привело к распространению феминистских, маскулинных, гомосексуальных, транссексуальных, бисексуальных и др. личностей. Отношения однополых людей нарушают равновесие общества и вызывают уменьшение естественного прироста населения, одновременно вызывая увеличение неполных семей.

В то же время в результате формирования инородного отношения к полу женские и мужские особенности стали терять свою истинную сущность. Колеблющееся отношение к гендерной идентичности непосредственно приводило к нарушениям эмоций. В наши дни эмоциональные потрясения, чувство ничтожности, одиночества, неадекватности и внезапные, нелогичные решения, вызванные этим чувством, побудили нас пролить свет на актуальную проблему. Комплекс неуверенности, многие навязчивые формы поведения могут пытаться скрыть эти чувства застенчивостью и высокомерными поведенческими реакциями, что показывает, насколько ужасна кризисная ситуация. Целенаправленные шаги средств массовой информации в этом направлении еще больше обострили нынешнюю ситуацию. В данной статье рассмотрена природа гендерного равенства, когда и где оно было создано, его природа, а также негативные обстоятельства, вызванные обеспечением этого равенства в обществе.

**Ключевые слова:** *гендерное равенство, женщина, мужчина, феминистка, гормон, идентичность.*